Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Birinci sessiya
Payız

16-cı cild

16 dekabr 2024-cü il

Milli Məclisin nəşri
Bakı – 2024

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# I SESSİYASI İCLASININ

# PROTOKOLU № 17

*Milli Məclisin iclas salonu.*
*16 dekabr 2024-cü il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 117 deputatı iştirak etmişdir.**

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
|---|---|
| İştirak edir | 114 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Əli Əsədov**, Azərbaycan Respublikasının Baş naziri.

**Yaqub Eyyubov**, Azərbaycan Respublikası Baş nazirinin birinci müavini.

**Şahin Mustafayev**, Azərbaycan Respublikası Baş nazirinin müavini.

**Fərid Əhmədov**, Azərbaycan Respublikasının ədliyyə naziri.

**Samir Şərifov**, Azərbaycan Respublikasının maliyyə naziri.

**Mikayıl Cabbarov**, Azərbaycan Respublikasının

iqtisadiyyat naziri.

**Sahil Babayev**, Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri.

**Məcnun Məmmədov**, Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri.

**Emin Əmrullayev**, Azərbaycan Respublikasının elm və təhsil naziri.

**Teymur Musayev**, Azərbaycan Respublikasının səhiyyə naziri.

**Rəşad Nəbiyev**, Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri.

**Pərviz Şahbazov**, Azərbaycan Respublikasının energetika naziri.

**Muxtar Babayev**, Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri.

**Vüqar Mustafayev**, Azərbaycan Respublikasının müdafiə sənayesi naziri.

**Adil Kərimli**, Azərbaycan Respublikasının mədəniyyət naziri.

**Ceyhun Cəlilov**, Naxçıvan Muxtar Respublikasının Baş naziri.

**Şahin Bağırov**, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri.

**Bahar Muradova**, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri.

**Tahir Budaqov**, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin sədri.

**Rövşən Rzayev**, Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri.

**Anar Quliyev**, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri.

**Qoşqar Təhməzli**, Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin sədri.

**Fuad Nağıyev**, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri.

**Zaur Mikayılov**, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri.

**Zaur Əliyev**, Azərbaycan Respublikasının İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri.

**Tapdıq Əmiraslanov**, Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini.

**Fərhad Hacıyev**, Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini.

**Gündüz İsmayılov**, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini.

**Elşad Əliyev**, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini.

**Taleh Kazımov**, Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin sədri.

**İsrafil Məmmədov**, Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru.

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Vüsal Qasımlı**, Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru.

**Rüfət Məmmədov**, Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri.

**Ələsgər Ələsgərov**, Azərbaycan Respublikası Baş nazirinin Katibliyinin rəisi.

**Zakir Paşayev**, Azərbaycan Respublikası Nazirlər Kabinetinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri.

**İbrahim Məmmədov**, Azərbaycan Respublikası Na-

zirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri.

**Elman Rüstəmov**, Azərbaycan Respublikası Baş nazirinin müşaviri.

**Fəxri İsmayılov**, Azərbaycan Respublikası Baş nazirinin köməkçisi.

**Fazil Fərəcov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Fikrət Şirinov**, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin şöbə müdiri.

**Samir Seyidəhmədli**, Azərbaycan Respublikası Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsinin müavini.

**Bəxtiyar Əsgərov**, Naxçıvan Muxtar Respublikasının Bakı şəhərində Daimi nümayəndəliyinin rəhbəri.

**Azər Məmmədov**, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini.

**Azər Babayev**, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Həqiqi Hərbi Xidmətə Çağırış Baş idarəsinin rəisi.

**Anar Əkbərov**, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Hüquqi təminat şöbəsinin müdiri.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

2. Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi

(üçüncü oxunuş).

3. İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

4. Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

8. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

9. "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

10. "Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

11. Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

12. Azərbaycan Respublikası Hesablama Palatasının 2025-ci il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.

13. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

14. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Psixiatriya yardımı haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Gündəlik qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
| Lehinə | 114 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |

| | |
|---|---|
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

**1. Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Samir Şərifov, Qüdrət Həsənquliyev, Hikmət Məmmədov, Elşən Musayev, Elman Nəsirov, Polad Bülbüloğlu, Əli Əsədov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.27 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

**2. Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Azər Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.33 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs verməndi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

**3. İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.34 dəq.) |
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

**4. Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Musa Quliyev

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.36 dəq.) |
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |

Nəticə: Qəbul edildi

**5. Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Azər Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 117 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.41 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 116 |

Nəticə: Qəbul edildi

**7. “Azərbaycan Respublikasının Vergi Məcəlləsində**

**dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2021-ci il 3 dekabr tarixli 406-VIQD nömrəli Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.42 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |

Nəticə: Qəbul edildi

**8. "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 116 |

Nəticə: Qəbul edildi

**9. "Sosial sığorta haqqında", "Tibbi sığorta haq-**

**qında” və “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Musa Quliyev, Əhliman Əmiraslanov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

**10. “Gömrük tarifi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

| | |
|---|---|
| **Təklif:** Qanun qəbul edilsin | |
| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

**11. Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Aydın Mirzəzadə

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**12. Azərbaycan Respublikası Hesablama Palatasının 2025-ci il üçün xərclər smetası haqqında Azərbaycan Respublikası Milli Məclisinin qərarının layihəsi.**

**Çıxış etmişdir:** Sahibə Qafarova

**Təklif:** Qərar qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**13. “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişik-**

**lik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |

Nəticə: Qəbul edildi

**14. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Psixiatriya yardımı haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Əli Hüseynli, Əhliman Əmiraslanov, Vüqar Bayramov, Aydın Hüseynov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 12.41 dəq.)

| | |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*16 dekabr 2024-cü il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Hörmətli cənab Baş nazir və hökumət üzvləri, hörmətli deputatlar və media nümayəndələri, hamınızı xoş gördük. Hörmətli deputatlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.02 dəq.) |
| --- | --- |
| İştirak edir | 114 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var.

Hörmətli həmkarlar, bildiyiniz kimi, bizim gündəliyimizdə 14 məsələ var. Xahiş edirəm, indi gündəliyə də münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.02 dəq.) |
| --- | --- |
| Lehinə | 114 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 115 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, gündəlik qəbul edildi.

Hörmətli həmkarlar, dediyim kimi, gündəliyimizdə 14 məsələmiz var. Bu məsələlərin 10-u dövlət büdcəsi və büdcə zərfinə daxil olan digər qanun layihələridir. Qeyd edim ki, bu layihələrə üçüncü oxunuşda baxılacaq. Beləliklə, biz indi gündəliyin 1-ci məsələsinə keçirik və bu məsələ Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün mən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri hörmətli Azər Əmiraslanova söz vermək istəyirəm. Azər müəllim, buyurun.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli millət vəkilləri və hökumət üzvləri. Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə təqdim edilmiş 2025-ci ilin dövlət büdcəsi layihəsi və büdcə zərfinə daxil olan digər layihələr həm komitə, həm də plenar iclaslar çərçivəsində hökumət üzvlərinin və dövlət orqanları nümayəndələrinin iştirakı ilə geniş müzakirə edilmiş, birinci və ikinci oxunuşlarda deputat həmkarlarımız tərəfindən dəstəklənmişdir.

Hörmətli həmkarlar, qanun layihəsi Milli Məclisdə müzakirə olunduğu dövrdə bir sıra dövlət qurumlarında struktur dəyişiklikləri həyata keçirilmiş, dövlət və icmal

büdcələrindən maliyyələşən və maliyyə yardımı alan subyektlərin fəaliyyəti ilə bağlı Azərbaycan Respublikasının Prezidenti tərəfindən hökumətə müvafiq icra tapşırıqları verilmişdir. Eyni zamanda, büdcə müzakirələri çərçivəsində hörmətli millət vəkilləri bir sıra təkliflər irəli sürmüşlər. Qeyd etdiyimiz bu amillər 2025-ci ilin dövlət büdcəsinin ikinci oxunuşda qəbul edilmiş layihəsinə müəyyən dəyişikliklər edilməsi zərurəti yaratmış və bu dəyişikliklər üçüncü oxunuş üçün Milli Məclisin plenar iclasına təqdim olunmuş layihədə öz əksini tapmışdır. Belə ki, dövlət büdcəsinin həm gəlirləri, həm də xərcləri üzrə 40 milyon manat məbləğində artım istiqamətində dəyişiklik edilir. Bu məbləğ büdcədənkənar gəlirlərin, eləcə də bu gəlirlərdən formalaşan xərclərin artımı ilə bağlıdır.

Bununla bərabər, dövlət büdcəsinin bəzi xərc istiqamətlərində ümumi məbləğ daxilində dəyişiklik edilir. Başqa sözlə, bəzi istiqamətlər üzrə xərclər, ümumilikdə, 229,8 milyon manat azaldılır, digər istiqamətlər üzrə həmin məbləğ qədər artırılır. Beləliklə, dövlət büdcəsinin gəlirləri növbəti il üçün 38 milyard 356 milyon manat, xərcləri isə 41 milyard 407 milyon 600 min manat nəzərdə tutulur.

Hörmətli millət vəkilləri, təklif edilən dəyişikliklər barədə maliyyə naziri hörmətli Samir Şərifov öz çıxışında daha geniş məlumat verəcəkdir. Öz tərəfimizdən isə bildiririk ki, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi bu dəyişiklikləri məqbul və məqsədəuyğun hesab edir. Dövlət büdcəsi təkcə iqtisadi göstəricilərdən, rəqəmlərdən ibarət illik maliyyə planı deyil. Bu, milli iqtisadiyyatla yanaşı, dövlət siyasətinin də güzgüsüdür. Belə ki, büdcə

rəqəmləri həm də dövlətin hansı strateji məqsəd və təşəbbüsləri, hansı siyasi qərarları realaşdırdığını özündə əks etdirir. Əgər dövlət büdcəsində müdafiə xərcləri artırılırsa, xarici borclanmaya mühafizəkar yanaşılırsa, strateji layihələrin maliyyələşdirilməsi daxili resurslara əsaslanırsa, deməli, bu büdcənin arxasında həm də milli maraqlara söykənən dövlət siyasətimiz dayanır. Büdcə zərfi hökumət tərəfindən təqdim edilsə də, icra və qanunvericilik orqanlarının birgə müzakirə platformasından keçdikdən sonra dövlətimizin başçısı tərəfindən imzalanır, qanun qüvvəsinə malik olan dövlət büdcəsi statusunu qazanır və ümummilli vahid strateji sənədə çevrilir.

Hörməti xanım sədr, hörmətli cənab Baş nazir, hesab edirik ki, bir ay davam edən büdcə müzakirələri gedişində 2025-ci ilin dövlət büdcəsi layihəsinə münasibətdə hökumətlə parlament vahid mövqe nümayiş etdirdi. Hökumət dövlət hakimiyyətinin icra qanadını, Milli Məclis isə qanunvericilik qanadını təmsil etsə də, dövlət və dövlət hakimiyyəti vahiddir. Bütün istiqamətlər üzrə dövlət siyasəti vahid olduğu kimi, iqtisadi siyasət də, onun tərkib hissəsi olan büdcə siyasəti də vahidlik prinsipinə əsaslanır. Yeri gəlmişkən, vurğulamaq istərdim ki, digər ölkələrdən fərqli olaraq Azərbaycanda ali dövlət idarəçiliyinin ən güclü tərəflərindən və üstünlüklərindən biri ali icra və qanunvericilik hakimiyyəti orqanlarının dövlət siyasətinin müxtəlif istiqamətlərinə münasibətdə vahid mövqedən çıxış etməsidir. Tam əminliklə qeyd edə bilərik ki, ölkəmizdə vahid dövlət siyasətinin həyata keçirilməsi ənənəsi bundan sonra da davam edəcək, sosial, iqtisadi, siyasi və institusional islahatların reallaşdırılması üçün imkanlar pəncərəsi yaradacaq, dövlət idarəçiliyinin ahəngdarlığına

və sabitliyinə bundan sonra da öz töhfəsini verəcəkdir.

Hörmətli həmkarlar, Milli Məclisin komitələrində və plenar iclasda aparılmış müzakirələrin nəticələrini, Hesablama Palatasının təqdim etdiyi rəyi nəzərə alaraq, belə qənaətə gəlirik ki, Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında qanun layihəsi və onunla bağlı digər layihələr ölkəmizin iqtisadi reallıqlarına və büdcə qanunvericiliyinin tələblərinə cavab verir.

Eyni zamanda, növbəti ilin büdcə zərfi ölkəmizin milli təhlükəsizliyinə, milli iqtisadiyyatımızın inkişafına, sosial rifaha, Qarabağın və Şərqi Zəngəzurun bərpasına və bu kimi digər mühüm dövlət maraqlarımıza xidmət edir.

2025-ci ilin büdcəsi dövlətimizin siyasi, iqtisadi və hərbi gücünü nümayiş etdirməklə növbəti ildə də möhtərəm Prezidentimiz tərəfindən qarşıya qoyulmuş çox mühüm, təxirəsalınmaz strateji vəzifələrin yerinə yetirilməsi üçün etibarlı maliyyə təminatı yaradır. Qeyd etdiyimiz bu məqamları nəzərə alaraq, deputat həmkarlarımzdan 2025-ci ilin dövlət büdcəsi layihəsinin üçüncü oxunuşda da dəstəklənməsini xahiş edirəm. Diqqətinizə görə təşəkkürümü bildirirəm.

**Sədrlik edən.** Azər müəllim, çox sağ olun. Hörmətli həmkarlar, mən qeyd edim ki, birinci və ikinci oxunuşlar zamanı 85 deputat dövlət büdcəsi haqqında mülahizələrini bildirmişdir və bütün çıxışlar, o cümlədən deputatların yazılı təqdim etdikləri 27 çıxış aidiyyəti üzrə Nazirlər Kabinetinə və Maliyyə Nazirliyinə göndərilmişdir.

İndi isə, hörmətli həmkarlar, çıxış etmək üçün Azərbaycan Respublikasının maliyyə naziri hörmətli Samir Şərifova söz vermək istəyirəm. Samir müəllim, buyurun.

**Samir Şərifov**, *Azərbaycan Respublikasının maliyyə*

*naziri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli millət vəkilləri, xanımlar və cənablar. Artıq bir aydan çox müddətdə Milli Məclisin komitələrində və plenar iclaslarında Azərbaycan Respublikasının Prezidenti tərəfindən Milli Məclisə təqdim olunmuş Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsi haqqında qanun layihəsinin və büdcə zərfinə daxil olan digər sənədlərin müzakirəsi gedir. Qanun layihəsinin konstruktiv şəkildə müzakirə edilməsinin təşkilinə görə hörmətli xanım sədr, Sizə, komitə sədrlərinə, eyni zamanda, təklif və tövsiyələrinə, şərhlərinə görə müzakirələrdə iştirak etmiş millət vəkillərinə təşəkkürümü bildirirəm.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin verdiyi məlumata əlavə olaraq bildirmək istərdim ki, bəzi zəruri istiqamətlər üzrə xərclərin artırılması ilə bağlı, o cümlədən müzakirələr zamanı hörmətli millət vəkillərinin irəli sürdüyü təkliflər də nəzərə alınmaqla təqdim olunan büdcə layihəsində aşağıdakı dəyişikliklərin edilməsi məqsədəuyğun hesab olunur.

1. Büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmaları və ona müvafiq olaraq, büdcədənkənar xərcləri 40 milyon manat məbləğində artırmaq.

2. Əlavə gəlir potensialının səfərbər edilməsi yolu ilə bir sıra publik hüquqi şəxslərə xərclərini dövlət büdcəsi hesabına deyil, daha çox öz gəlirləri hesabına təmin etmək tövsiyə edilmişdir. Bunun nəticəsi olaraq təqribən 159 milyon manat vəsaiti bu təyinat üzrə sərbəstləşdirmək və tam həcmdə ölkəmizin müdafiə və milli təhlükəsizliyinin daha da gücləndirilməsi ilə bağlı əlavə maliyyə təminatına yönəltmək. Bununla müdafiə və milli təhlükəsizlik xərc-

lərinin dövlət büdcəsindəki ümumi məbləği 8 milyard 555 milyon manata çatdırılır.

3. Büdcə təşkilatlarında malların və xidmətlərin alınması üzrə xərclərin optimallaşdırılması yolu ilə əlavə 36 milyon manat vəsaiti sərbəstləşdirmək və aşağıdakı istiqamətlər üzrə xərcləri artırmaq.

Azərbaycan Respublikası Milli Məclisinin maliyyə təminatını əlavə olaraq 815 min manat məbləğində, möhtərəm Prezidentimizin tapşırığı ilə siyasi partiyalara maliyyə yardımının ayrılması üçün ilkin proqnozlaşdırılan vəsaiti 1 milyon manat və ya 20 faiz artırmaq. 2025-ci ildə Yaponiyanın Osaka şəhərində keçiriləcək ümumdünya sərgisində, Expo 2025-də ölkəmizin təmsil olunması xərcləri də daxil olmaqla, dövlət büdcəsində beynəlxalq fəaliyyət üzrə xərcləri 24 milyon manat artırmaq.

Ölkəmizin ixrac və investisiya potensialının tətbiqi ilə bağlı xərclərin maliyyələşdirilməsi üçün 10 milyon manat ayırmaq.

4. 2025-ci ilin dövlət büdcəsində Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə Naxçıvan Muxtar Respulikasının Dövlət Energetika və Su Ehtiyatları agentliklərinin səlahiyyətlərinin müvafiq olaraq, "Azərenerji" və "Azərişıq" açıq səhmdar cəmiyyətlərinə, həmçinin Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə ötürülməsi ilə əlaqədar dəyişikliklərin və bununla bağlı müvafiq xərclərin dövlət büdcəsində əks etdirilməsi zərurəti yaranmışdır. Müvafiq olaraq, Naxçıvan Muxtar Respublikasına dövlət büdcəsinin mərkəzləşdirilmiş xərclərindən ayrılması nəzərdə tutulmuş dotasiyanın məbləği 34,8 milyon manat azaldılıb və eyni məbləğdə vəsait Naxçıvan Muxtar Respublikasının ərazisində fəaliyyət göstərən

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin maliyyə təminatına yönəldilir.

Yuxarıda təklif olunan dəyişikliklər qəbul edildiyi təqdirdə, 2025-ci il üçün həm dövlət, həm də icmal büdcələrinin gəlir və xərcləri bərabər olaraq 40 milyon manat artır. Yəni dövlət büdcəsinin gəlirləri, – hörmətli Azər müəllimin artıq qeyd etdiyi kimi, – 38 milyard 356 milyon manat, xərcləri 41 milyon 407 milyon 600 min manat, icmal büdcənin gəlirləri 43 milyard 950 milyon 500 min manat, xərcləri isə 47 milyard 629 milyon 400 min manat təşkil edəcəkdir.

Dövlət və icmal büdcələrinin kəsrlərində hər hansı dəyişiklik baş verməyəcəkdir. Onlar ilkin təqdim olunmuş büdcə layihəsindəki kimi saxlanılır.

Hörmətli millət vəkilləri, dövlət və icmal büdcələrinin gəlirləri və xərcləri üzrə artımlar, həmçinin bəzi xərc maddələri üzrə edilməsi təklif olunan dəyişikliklər sizə təqdim olunmuş Azərbaycan Respublikası qanununun yenilənmiş 1.2-ci, 7-ci, 7.1-ci, 7.3-cü, 7.12-ci, 9-cu və 15-ci maddələrində öz əksini tapmışdır.

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Sizləri 2025-ci il üçün dövlət və icmal büdcələrinin layihələrinə edilməsi təklif olunan bu düzəlişlər də nəzərə alınmaqla, dəqiqləşdirilmiş dövlət və icmal büdcələrinin layihələrini və büdcə zərfinə daxil edilmiş digər qanunvericilik aktlarını qəbul etməyə və onlara səs verməyə çağırıram. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Samir müəllim. Hörmətli həmkarlar, qanun layihəsi barədə sözü, sualı olan yoxdur ki? Yoxdur.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Var, üzr istəyirəm. Qüdrət Həsənquliyev. Buyurun. Sualdır?

**Qüdrət Həsənquliyev**. Qısa bir fikir. Çox hörmətli sədr, hörmətli hökumət üzvləri və həmkarlar, media nümayəndələri. İlk öncə bu gün Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının peşə bayramıdır. Mən, sadəcə olaraq, bir neçə cümlə ilə onları bu münasibətlə təbrik edirəm, çətin və şərəfli işlərində uğurlar arzulayıram. Həmçinin çıxışlarına görə Azər müəllimə və Samir müəllimə də təşəkkür edirəm.

Samir müəllimin qeyd etdiyi bütün dəyişiklikləri mütərəqqi sayıram və təqdir edirəm, dəstəkləyirəm. O cümlədən siyasi partiyalara ayrılan vəsaitin artırılmasına görə. Ölkəmizdə vətəndaş cəmiyyətinin, demokratiyanın inkişafında və hüquqi dövlət quruculuğunda siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının, medianın rolu əvəzsizdir. Bu gün onlar ölkəmizə qarşı aparılan bütün böhtan və qarayaxma kampaniyasına qarşı dayanırlar və bu kampaniyanı aparanlar onlar tərəfindən ifşa olunur. Bütün bunları nəzərə alaraq, siyasi partiyaların fəaliyyətinin gücləndirilməsi üçün maliyyə vəsaitinin artırılmasına görə mən həm cənab Prezidentə, həm də Nazirlər Kabinetinə öz minnətdarlığımı bildirmək istəyirəm. Qanun layihəsinə səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov**. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir. Doğrudan da, biz müstəqillik dövrü tariximizin ən iri maliyyə tutumlu bir sənədini qəbul edirik. Sənədin strateji tərəfləri haqqında artıq çox danışılıbdır və biz bilirik ki, hər nə qədər bu sənəd strateji baxımdan təhlükəsizliyimizi təmin edəcəksə, sosial

təminat məsələlərimizi həll edəcəksə, bir o qədər də daxili siyasi aktorlarımızın fəaliyyətini tənzimləyəcəkdir. Düşünürəm ki, Azərbaycanda fikir plüralizminin, söz, siyasi fəaliyyət azadlığının təmin olunması birbaşa siyasi sistemimizin daxili aktorları olan siyasi partiyaların fəaliyyəti ilə bağlıdır. Bu fəaliyyət üçün də 1 milyon manatdan çox vəsaitin ayrılması nəzərdə tutulur. Düşünürəm ki, bu, Azərbaycanda siyasi azadlıqların, söz, əqidə azadlığının, demokratik azadlıqların təminatçısı olan Azərbaycan Respublikası Prezidentinin məhz siyasi sisteminizə verdiyi yeni töhfədir. Ona görə də mən təşəkkür edirəm. Diqqətinizə görə çox sağ olun. Büdcə layihəsinə səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun. Elşən Musayev. Buyurun.

**Elşən Musayev.** Təşəkkür edirəm, xanım sədr. Hər kəsi salamlayıram və mən də hörmətli, dəyərli həmkarlarım Qüdrət müəllimin, Hikmət müəllimin fikirlərini qüvvətləndirmək istəyirəm.

Samir müəllim siyasi partiyalarla bağlı xüsusi bir qeyd etdi, maliyyə vəsaiti artırılır. Hesab edirəm ki, bu artım bizlərin fəaliyyətinin stimullaşmasında, eyni zamanda, genişlənməsində, həqiqətən, böyük bir təkan olacaq.

Eyni zamanda, qeyd edim ki, siyasi partiyalara son dövrlər, həqiqətən, çox böyük diqqət ayrılır. Hörmətli Sahibə xanım, Sizin də bizə xüsusi münasibətinizi hər zaman sezmişik. Elə haqqında danışdığımız büdcə layihəsinin ilkin mərhələdə müzakirə olunduğu İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında bizim iştirakımız dediklərimin əyani sübutudur.

Eyni zamanda, Prezident Administrasiyasında müvafiq şöbə yaranandan sonra hakimiyyətin digər qolu ilə əməkdaşlığımız, həqiqətən, çox genişlənib. Nəhayət, bir

daha təkrar etmək istəyirəm, bu gün siyasi partiyalar, daha doğrusu, parlamentdə təmsil olunan siyasi partiyalar bu artımdan xüsusən bəhrələnəcək və onların işində faydalılıq əmsalı artacaq. Mən cənab Prezidentə, onun timsalında hökumətimizə xüsusi minnətdarlığımı bildirmək istəyirəm. Vurğulamaq istəyirəm, cənab Prezident də əmin olsun ki, bizlər hər zaman milli məsələlərdə, dövlətçilik mövzusunda onun yanındayıq və Azərbaycanın haqqını, həqiqətlərini hər yerdə, bütün cəbhələrdə daim müdafiə etmək iqtidarındayıq. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Elman Nəsirov. Buyurun.

**Elman Nəsirov**. Hörmətli xanım sədr, hörmətli Baş nazir, hörmətli hökumət üzvləri. Bu gün biz üçüncü oxunuşda 2025-ci ilin dövlət büdcəsini artıq təsdiqləmək ərəfəsindəyik. Çıxışımda bir məqama diqqət yetirmək istəyirəm.

Bir-iki gün bundan öncə mən Cəlilabadda İranla həmsərhəd kəndlərdə oldum, seçicilərlə görüşüm idi və qənaətim o oldu ki, bizim bu müzakirələrimizi çox diqqətlə izləyirlər. Mətbuatdan, sosial şəbəkələrdən izləyirlər. Öz dərin təşəkkürlərini ifadə etdilər ki, bütün büdcəmizin, xərcləri 41,4 milyard manat olan büdcəmizin təxminən 41 faizi məhz sosial yönümlü xərclərdir. Bu da təxminən 17 milyard manat təşkil edir. Söylədilər ki, cənab Prezident bizə çox böyük diqqət ayırır. Həm də xüsusi vurğuladılar ki, bizim təhlükəsizliyimiz və müdafiə məsələlərimiz çox böyük önəm kəsb edir. Yəni dünyadakı prosesləri, qonşu Ermənistandakı o revanşizm proseslərini izləyirlər və söylədilər ki, hərbi büdcəmiz bundan sonra daha da artsa, lap yaxşı olar. Çox sevindirici haldır, indi hörmətli maliyyə naziri Samir müəllim də öz çıxışında vurğuladı ki, bizim müdafiə və təhlükəsizlik xərclərimiz

birinci oxunuşda 8,4 milyard manat nəzərə tutulmuşdu, onun miqdarı 8 milyard 555 milyon manata qədər yüksəldilir. Bu da çox müsbət hadisədir.

Eyni zamanda, üçüncü oxunuşda büdcəmizə baxarkən görürük ki, təkcə hərbi və təhlükəsizlik deyil, eyni zamanda, beynəlxalq məsələlər də, diplomatiyamızın müvəffəqiyyəti üçün də büdcəyə diqqət ayrılıb. Birinci oxunuşda əgər bizim beynəlxalq münasibətlər istiqaməti üçün xərclərimiz 493,1 milyon manat nəzərdə tutulmuşdusa, indi artıq 502,8 milyon manatdır. Bu da çox müsbət hadisədir.

Hörmətli xanım sədr, fürsətdən istifadə edib onu da qeyd etmək istəyirəm ki, biz, bəli, bu parlamentdə, xüsusi ilə belə müzakirələrdə problemləri qaldırırıq, məsələləri dilə gətiririk, söyləyirik. Bunlar olmalıdır, ümumiyyətlə, parlamentin fəaliyyəti bu kimi məqamları özündə ehtiva edir. Amma eyni zamanda, sanki mətbuatda, bütövlükdə, sosial şəbəkələrdə nəsə neqativ olanı göstərməyə xüsusi həvəs var. Sanki bu istiqamətdə bir yarışa çıxırlar. Amma pozitiv olanı, uğurları, biz nailiyyətlər qazanmışıq, onu göstərməyə, onu ifadə etməyə, necə deyərlər, cəmiyyətə çatdırmağa sanki bu sahədə bir qədər səxavətli deyillər.

Bunu mən yumşaq söyləyirəm və çıxışımın əvvəlində qeyd etdiyim kimi, mənim bax, seçicilərlə görüşümdə, hörmətli Sahibə xanım, dekabr ayı üçün olan faktı söyləyirəm. Bu gün ayın 16-dır, yəni 16 günlük bir hesabatı deyirəm. Seçicilərimlə görüşümdə, deməli Cəlilabad rayonunun Buravar kəndinin sakini Kazımov Həbib İbrahim oğlu mənə yaxınlaşdı dedi ki, çoxuşaqlı ailə olması ilə əlaqədar ünvanlı sosial yardımla bağlı müraciət edib və müraciət ünvanını da deyir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, cənab Sahil Babayev. Nəticə – müra-

ciət əsasında aparılmış zəruri tədbirlər nəticəsində müraciətçiyə 2024-cü il 1 dekabr tarixindən 2025-ci il 1 dekabr tarixinədək 876 manat ünvanlı sosial yardım ayrılıb.

Cəlilabadın Boyxanlı kəndində ailə başçısını itirdiklərinə görə onların da ünvanlı sosial yardıma ehtiyacı var idi və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə və cənab nazirə müraciət ediblər və yenə də ünvanlı sosial yardım verilib. Bütövlükdə isə, 2024-cü il ərzində 40700, yəni təxminən 41000 nəfərə qədər insanın ünvanlı sosial yardım və ümumiyyətlə, əlillik məsələləri öz hillini tapıb. Amma bu kimi məsələləri demirlər. Bilirsiniz, kimlərin ki, problemi həllini tapmayıb onlar çox fəaldır, sosial şəbəkədə, hər yerdə bunu dilə gətirirlər. Amma axı, 41 minə qədər insanın da təkcə bu istiqamət üzrə problemi həllini tapıb. Çox istərdim ki, bax, bu kimi məsələlər də parlamentdə deyilsin, dilə gətirilsin, mətbuatda deyilsin. Yəni pozitiv olanı da biz təqdim edək və cəmiyyətə tam, obyektiv məlumat çatdıraq. Mən üçüncü oxunuşda da qanun layihəsinin lehinə səs verəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Deputatlar həm parlamentdə danışmalıdırlar, həm sosial şəbəkələrdə fəal olmalıdırlar, həm də seçicilərlə daha çox görüş keçirib, pozitiv məqamların hamısını deməlidirlər. Polad Bülbüloğlu. Buyurun, Polad müəllim.

**Polad Bülbüloğlu**. Hörmətli xanım sədr, hörmətli Baş nazir, hörmətli hökumət üzvləri, həmkarlarım. Mənim belə bir təklifim var. Nəzərə alaraq ki, VII çağırış Milli Məclisin deputatları kimi bizi ancaq sentyabrda seçiblər və biz oktyabr ayında işə başladıq, hökumət üzvləri çox sağ olsunlar, bizim təklifləri nəzərə alıblar. Amma mən belə bir təklif irəli sürmək istəyirəm, gələn ilin büdcəsində, yəni 2025-ci ildə ki,

Maliyyə Nazirliyi büdcənin üzərində işləməyə başlayır, haradasa yəqin mart-aprel aylarından komitə səviyyələrində biz sahə nazirləri ilə bir yerdə təklifləri müzakirə edək. Mədəniyyət komitəsini götürsək, Mədəniyyət Nazirliyi ilə bir yerdə kitabxanalardan, muzeylərdən, musiqi məktəb-lərindən təklifləri alıb, yəni büdcə hazırlanan mərhələdə, – yenə təkrar etmək istəyirəm, – məsələn, bizim komitələr səviyyəsində Maliyyə Nazirliyinin işçiləri ilə bir yerdə bizə seçicilərimiz tərəfindən verilən təklifləri irəli sürə bilək. Onlar nəzərə alınsın və sonra Maliyyə Nazirliyi hökumətə büdcəni təqdim edəndə bu təkliflər nəzərə alınsın deyə, təklif edərdim. Bu işi biz bir az əvvəldən, 2025-ci ildə başlaya bilərik. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Polad müəllim. Ancaq onu da qeyd edim ki, əslində, bu təkliflər artıq verilib, yenə də Siz dediyiniz kimi, belə görüşləri keçirmək olar. Çox sağ olun.

Hörmətli həmkarlar, mən məsələni səsə qoyuram, xahiş edirəm, münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.27 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, büz büdcə zərfinə daxil olan digər layihələrə keçirik. Qeyd edim ki, gündəliyin 2-ci məsələsi

Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında, gündəliyin 3-cü məsələsi isə İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında qanun layihələridir. Hər iki məsələ sosial müdafiə sahəsi ilə bağlıdır, odur ki, təklif edirəm, ötən iclaslarda olduğu kimi, biz əvvəlcə qanun layihələrinin təqdimatlarını dinləyək, sonra isə növbəti prosedurlara keçək. Hər iki qanun layihəsinə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Layihələr haqqında məlumat vermək üçün mən sözü komitənin sədri hörmətli Musa Quliyevə verirəm. Musa müəllim, buyurun.

**Musa Quliyev**, *Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri.*

Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli cənab Baş nazir, hörmətli hökumət üzvləri, hörmətli millət vəkili həmkarlarım. Artıq deyildiyi kimi, bir aya yaxındır büdcə müzakirələri hökumətin iştirakı ilə parlamentdə istər komitələrdə, istərsə də plenar iclaslarda çox fəal şəkildə müzakirə olundu. Ətraflı məlumatlar verildi, ətraflı çıxışlar oldu, fikirlər söylənildi. İstər birinci oxunuş, istərsə də ikinci oxunuş zamanı Dövlət Sosial Müdafiə Fondu və İşsizlikdən şığorta fondunun büdcə layihəsi ətrafında çıxış edən, təklif verən, layihələri dəstəkləyən, səs verən bütün deputat həmkarlarımıza komitəmizin minnətdarlığını bildirmək istəyirəm. Bildirmək istəyirəm ki, büdcə layihələri barədə komitəyə əlavə təkliflər daxil olmayıbdır.

Dövlət Sosial Müdafiə Fondunun gələn il üçün büdcəsi, gəlirləri və xərcləri bərabər olmaqla 7,7 milyard manat nəzərdə tutulur. Bu, cari ildəkindən 10,5 faiz çoxdur. İsizlikdən sığorta fondunun büdcəsi də gələn il üçün gəlirləri və xərcləri bərabər olaraq 261 milyon manat nəzərdə tutulur ki, bu da cari ildəkindən 9,5 faiz çoxdur.

Eyni zamanda, nəzərə alsaq ki, bizim dövlət büdcəmiz sosial yönümlü bir büdcədir və dövlət büdcəmizdə sosial yönümlü xərclər 17 milyard manat və yaxud ümumi büdcənin 41 faizini təşkil edir. Bunlar imkan verəcək ki, gələn il əhalimizin sosial rifah halını daha da yüksək səviyyədə qorumaq mümkün olsun. Vətəndaşlarımızın, xüsusi ilə aztəminatlı insanların sosial müdafiəsini gücləndirmək üçün büdcədə etibarlı maliyyə təminatı yaradılacaqdır. Bu büdcəmiz imkan verəcək ki, gələn il minimum əməkhaqqı, pensiyaların minimum məbləği artırılsın. Bu il orta aylıq əmək haqqının təxminən 9 faizə yaxın artımı imkan verəcək ki, gələn il bütün pensiyaçıların pensiyalarının sığorta hissəsində təxminən 9 faizə yaxın artım olacaqdır. Bu artımlar imkan verəcək ki, gələn il əmək pensiyalarının orta məbləği 535 manata çatacaq və yaxud cari ildəkindən 42 manat çox olacaq. Yaşa görə pensiyanın orta məbləği isə 571 manata çatacaq və cari ildəkindən 45 manat çox olacaqdır.

Eyni zamanda, gələn il İşsizlikdən sığorta fondunun büdcəsinin böyük əksəriyyəti, yəni 55 faizi aktiv məşğuluq tədbirlərinə yönələcəkdir. Aktiv məşğulluq tədbirləri içərisində ən uğurlu layihələrimizdən biri olan özünüməşğulluq layihəsi də gələn il davam edəcək və gələn il özünüməşğuluq proqramına cəlb olunan vətəndaşlarımızın sayı artıq 100 min nəfəri keçəcəkdir. Bu, 100 mindən çox ailə deməkdir. Eyni zamanda, İşsizlikdən sığorta fondunun büdcəsi imkan verəcək ki, gələn il biz peşə hazırlığına da diqqəti artıraq, vətəndaşlarımızın peşələrin öyrənilməsinə cəlb olunmasını da artıraq.

Hörmətli Birinci vitse-prezident Mehriban xanım

Əliyevanın ideyası olan və çox uğurla tətbiq olunan DOST xidmətinin fəaliyyəti də gələn il genişlənəcəkdir və daha çox vətəndaşlarımız bu xidmətdən istifadə edə biləcəklər.

Hörmətli həmkarlar, üçüncü oxunuşda hər iki büdcə layihəsinə səs verməyi sizdən xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Musa müəllim, çox sağ olun. Hörmətli həmkarlar, qanun layihələrinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Odur ki, mən sözü, Azər müəllim, yenə də Sizə verirəm. Buyurun.

**Azər Əmiraslanov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il üçün büdcəsi növbəti ilin həm büdcə zərfinin, həm də icmal büdcənin tərkib hissəsidir. Komitə tərəfindən layihə dəstəklənir və tərəfinizdən səsə qoyulmasını xahiş edirik. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Azər müəllim. Hörmətli həmkarlar, mən qanun layihələrini bir-bir səsə qoyacağam. İndi isə xahiş edirəm, Dövlət Sosial Müdafiə Fondunun 2025-ci il büdcəsi haqqında qanun layihəsinin üçüncü oxunuşda qəbul edilməsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.33 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul

edildi.

İndi isə İşsizlikdən sığorta fondunun 2025-ci il büdcəsi haqqında qanun layihəsinin üçüncü oxunuşda qəbul edilməsinə münasibət bildirməyinizi xahiş edirəm. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.34 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələyə keçirik. Bizim gündəliyimizdə 4-cü məsələdir. Bu məsələ Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Azər müəllim, yenə də mən Sizdən xahiş edəcəyəm, buyurun, məlumat verin.

**Azər Əmiraslanov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında qanun layihəsinə əsasən əhalinin əsas sosial demoqrafiq qrupları üzrə yaşayış minimumunun məbləği ölkə üzrə 270 manatdan 285 manata, əmək qabiliyyətli əhali üçün 287 manatdan 305 manata, pensiyaçılar üçün 225 manatdan 232 manata, uşaqlar üçün 235 manatdan 346 manata artırılır. Bu layihə də büdcə zərfinin tərkib hissəsinə

daxildir və layihənin hörmətli həmkarlarımız tərəfindən dəstəklənməsini xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim. Musa müəllim, sizin komitənizdə də baxılıb. Xahiş edirəm, komitənin rəyini bildirin. Buyurun.

**Musa Quliyev**. Çox sağ olun, hörmətli xanım sədr. Hörmətli Azər müəllim ətraflı məlumat verdi. Bizim komitə də həmin fikirləri dəstəkləyir. Komitənin rəyi müsbətdir, səsə qoymağınızı xahiş edirik.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən məsələni səsə qoyuram. Xahiş edirəm, Azərbaycan Respublikasında 2025-ci il üçün yaşayış minimumu haqqında qanun layihəsinin üçüncü oxunuşda qəbul edilməsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.36 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

5-ci məsələyə keçirik. Bu layihə Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün, Musa müəllim, mən yenə də Sizdən xahiş edəcəyəm, buyurun, məlumat verin. Bu sizin məsələnizdir.

**Musa Quliyev**. Çox sağ olun. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Əvvəlki iki oxunuşda ətraflı

məlumat verilibdir, komitəyə əlavə təkliflər daxil olmayıbdır. Xatırlatmaq istəyirəm ki, gələn il üçün ehtiyac meyarının məbləği 285 manat nəzərdə tutulur. Bu da cari ildəkindən 15 manat çoxdur. Bu vəsait imkan verəcək ki, gələn il ünvanlı sosial yardım alan vətəndaşlarımız daha əhatəli şəkildə sosial müdafiə ilə təmin olunsunlar. Üçüncü oxunuşda layihəni dəstəkləməyinizi sizdən xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində də baxılmışdır. Odur ki, Azər müəllim, xahiş edirəm, Siz yenə də komitənin rəyini bildirin. Buyurun.

**Azər Əmiraslanov.** Hörmətli xanım sədr, layihə komitə tərəfindən dəstəklənir və tərəfinizdən səsə qoyulmasını xahiş edirik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Mən məsələni səsə qoyuram. Xahiş edirəm, Azərbaycan Respublikasında 2025-ci il üçün ehtiyac meyarının həddi haqqında qanun layihəsinin üçüncü oxunuşda qəbul edilməsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.37 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Bizim növbəti məsələ Vergi Məcəlləsində dəyişiklik

edilməsi haqqında qanun layihəmizdir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Ona görə də, Azər müəllim, buyurun, qanun layihəsi haqqında məlumat verin.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputat həmkarlar. Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi üçüncü oxunuşda müzakirənizə təqdim olunur. Layihə birinci və ikinci oxunuşlarda komitə və plenar iclaslarda geniş müzakirə edilmiş, millət vəkilləri tərəfindən bir sıra təkliflər səsləndirilmişdir. Eyni zamanda, müzakirə dövründə qanun layihəsində tənzimlənməsi zəruri bilinən bir sıra məsələlər diqqət mərkəzində saxlanılmışdır. Bu məsələlər komitə və İqtisadiyyat Nazirliyinin Dövlət Vergi Xidməti tərəfindən nəzərdən keçirilərək məqbul hesab edilmiş və qanunvericilik təşəbbüsü subyekti ilə razılaşdırılmışdır. Həmin düzəlişləri qısaca olaraq, mövcud reqlamentə və proseduralara uyğun olaraq, diqqətinizə çatdırmaq istərdim.

1. 13.2.11-ci maddədə dəqiqləşdirmə məqsədi ilə "torpağa mülkiyyət" sözlərindən sonra "habelə torpaqdan istifadə" sözləri əlavə edilir. Bununla da vergi qanunvericiliyinin məqsədləri üçün torpaqdan istifadə hüququnun verilməsinin hüquqi rejimi müəyyən edilir.

2. 16.1.11-17-ci maddəyə təklif olunan dəyişikliyə əsasən kənd təsərrüfatı məhsulları bazarları istisna olmaqla, bazarların mülkiyyətçiləri və idarəedicilər tərəfindən vergi ödəyiciləri barədə məlumatın hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dək uçotda olduğu vergi orqanına təqdim edilməsi nəzərdə tutulur. Üçüncü oxunuşa təqdim olunan layihədə bu məlumatın elektron formada olması ilə

bağlı müvafiq düzəliş edilmişdir.

3. Məcəllənin digər maddələrində istifadə olunan terminlə eyniliyi təmin etmək üçün 50.1.15-ci maddədə “subyekt” sözü “təsərrüfat subyekti” sözləri ilə əvəz edilmişdir.

4. Təqdimat zamanı tərəfimizdən bildirilmişdir ki, qanun layihəsi ilə dövlət–özəl tərəfdaşlığı çərçivəsində özəl tərəfdaşlara bir sıra vergi növləri üzrə güzəştlər tətbiq ediləcəkdir. Güzəştlərin özəl tərəfdaşlarla yanaşı, layihə şirkətinə də şamil edilməsi nəzərdə tutulur. Bu məqsədlə 106.1.35-ci, 106.1.63-cü, 207.13-cü və 199.22-ci maddələrə təklif olunan mətnə “özəl tərəfdaş” sözlərinə “və ya layihə” sözləri əlavə edilir. Məlumat üçün bildirim ki, dövlət–özəl tərəfdaşlığı layihəsini özəl tərəfdaş bilavasitə deyil, layihə şirkəti vasitəsi ilə də həyata keçirə bilər.

Hörmətli xanım sədr, bütün düzəlişlər üçüncü oxunuşa təqdim olunan layihənin mətnində öz əksini tapır. Sonda bir daha bildirirəm ki, düzəlişlər Vergi Məcəlləsinin təkmilləşdirilməsinə xidmət edir və qanunvericilik təşəbbüsü subyekti ilə razılaşdırılmışdır. Qeyd edilənləri nəzərə alaraq, hörmətli millət vəkillərindən qanun layihəsinin üçüncü oxunuşda da dəstəklənməsini xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Azər müəllim, sağ olun. Hörmətli həmkarlar, mən məsələni səsə qoyuram. Xahiş edirəm, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.41 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, gündəliyin 7-ci məsələsinə keçirik. "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2021-ci il 3 dekabr tarixli Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Bu layihəyə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, mən yenə də Sizə söz verirəm. Buyurun, məlumat verin.

**Azər Əmiraslanov**. Hörmətli xanım sədr. Qanun layihəsinə əvvəlki oxunuşlarda heç bir əlavə və düzəlişlər edilməmişdir. Bunu nəzərə alaraq, layihənin növbəti oxunuş üçün səsə qoyulmasını Sizdən xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli həmkarlar, mən qanun layihəsini üçüncü oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.42 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Növbəti məsələ. Bu, 8-ci məsələmizdir. "Nağdsız hesablaşmalar haqqında" Qanunda dəyişiklik edilməsi ba-

rədə qanun layihəsidir. Layihəyə yenə də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim, bu qanun layihəsi haqqında da məlumat verin. Buyurun.

**Azər Əmiraslanov**. Hörmətli xanım sədr, büdcə zərfinə daxil olan bu qanun layihəsinə də heç bir dəyişiklik edilməmişdir. Bu layihənin də səsə qoyulmasını Sizdən xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim. Hörmətli həmkarlar, məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.43 dəq.) |
|---|---|
| Lehinə | 116 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

9-cu məsələ "Sosial sığorta haqqında", "Tibbi sığorta haqqında" və "İşsizlikdən sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Əmək və sosial siyasət komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün, Musa müəllim, Sizdən xahiş edəcəyəm, buyurun, məlumat verin.

**Musa Quliyev.** Çox sağ olun, hörmətli xanım sədr. Layihə Vergi Məcəlləsində təklif olunan dəyişikliklərə uyğunlaşma xarakteri nəzərə alınaraq hazırlanmışdır. Əvvəlki iki oxunuşda layihə barəsində ətraflı məlumat veril-

mişdir. Komitəyə heç bir təklif daxil olmayıb, layihənin mətnində dəyişiklik yoxdur. Olduğu kimi səsə qoyulmasını xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Musa müəllim, çox sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə Səhiyyə komitəsində də baxılıb. İndi mən komitənin sədri hörmətli Əhliman Əmiraslanova söz verirəm. Əhliman müəllim, buyurun.

**Əhliman Əmiraslanov**, *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Hörmətli Sahibə xanım, hörmətli Əli müəllim, hökumət üzvləri, həmkarlar. Qanun layihəsinə Səhiyyə komitəsinin də münasibəti müsbətdir, səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim. Hörmətli həmkarlar, qanun layihəsini mən üçüncü oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.45 dəq.) |
|---|---|
| Lehinə | 115 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 116 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, 10-cu məsələyə keçirik və bu məsələ "Gömrük tarifi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Azər müəllim, yenə də sizin komitənizin məsələsidir. Xahiş edirəm, məsələyə dair məlumat verin.

**Azər Əmiraslanov.** Təşəkkür edirəm. Hörmətli xanım sədr, üçüncü oxunuş üçün təqdim olunan bu qanun layihəsi ölkəmizdə sənayeləşmə, o cümlədən dövlət–özəl tərəfdaşlığı layihələri üçün gömrük güzəştlərini nəzərdə tutur. Birinci və ikinci oxunuşlarda hər hansı dəyişiklik edilməmişdir. Bu layihənin də səsə qoyulmasını Sizdən xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Azər müəllim. Hörmətli həmkarlar, qanun layihəsini səsə qoyuram. Buyurun, üçüncü oxunuşda münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.46 dəq.) |
|---|---|
| Lehinə | 117 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 117 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qanun layihəsi də üçüncü oxunuşda qəbul edildi.

Beləliklə, hörmətli həmkarlar, büdcə zərfinə daxil olan bütün qanun layihələri üçüncü oxunuşda qəbul edildi.

İndi isə mən çıxış etmək üçün Azərbaycan Respublikasının Baş naziri cənab Əli Əsədova söz verirəm.

Hörmətli Əli müəllim, buyurun.

**Əli Əsədov,** *Azərbaycan Respublikasının Baş naziri.*

Hörmətli xanım sədr, hörmətli deputatlar. 2024-cü il vətənimiz üçün siyasi müstəvidə çox önəmli tarixi hadisələrlə zəngin olmuşdur. Azərbaycanın müstəqillik

tarixində ilk dəfə olaraq bütün suveren ərazimizdə fevralın 7-də növbədənkənar Prezident seçkiləri, sentyabrın 1-də isə VII çağırış Milli Məclisə növbədənkənar seçkilər keçirildi. Prezident və parlament seçkilərinin nəticələri birmənalı olaraq, Prezident İlham Əliyevin zəfərlərə yol açan uğurlu və məqsədyönlü siyasətinə xalqımızın inam və etimadını bir daha nümayiş etdirdi. Bu münasibətlə Milli Məclis üzvlərini təbrik edirəm və fəaliyyətinizdə uğurlar arzulayıram.

Hökumətlə Milli Məclisin qanunvericilik sahəsində birgə işgüzar fəaliyyəti və əməkdaşlıq münasibətləri bundan sonra da davam etdirilməlidir.

İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində dövlət suverenliyimizin tam bərpa edilməsi tarixinin əbədiləşdirilməsi üçün cənab Prezidentin imzaladığı sərəncama əsasən sentyabrın 20-si Dövlət Suverenliyi Günü kimi təsis edilmişdir.

Bir fakt da qeyd edilməlidir ki, sentyabrın 20-də "Əsrin müqaviləsi"nin bağlanmasının 30-cu ildönümü qeyd olunmuşdur. "Əsrin müqaviləsi" Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu neft strategiyasının təməl daşıdır. Məhz bu strategiya Azərbaycanın müstəqilliyini möhkəmləndirdi, onun uzunmüddətli və davamlı iqtisadi inkişafını təmin etdi.

Bu strateji kurs bu gün möhtərəm Prezident cənab İlham Əliyev tərəfindən müasir çağırışlara uyğun olaraq, məharətlə və qətiyyətlə davam etdirilərək ölkəmizin inkişafının, iqtisadi qüdrətinin və siyasi nüfuzunun yüksəlməsini, xalqımızın rifahının artmasını təmin etmişdir.

Hörmətli deputatlar, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən

edilmişdir. Təsadüfi deyil ki, cənab Prezidentin Sərəncamı ilə 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elan edilmişdir.

Bu gün böyük fəxr və qürur hissi ilə qeyd edirik ki, dünyanın ən əhəmiyyətli və irimiqyaslı beynəlxalq mötəbər tədbirlərindən biri olan COP29 Bakıda keçirilmişdir. Çox yüksək səviyyədə, mükəmməl təşkil olunmaqla regionda ilk dəfə Azərbaycanda baş tutdu.

Ötən ilin dekabrında 200-ə yaxın ölkənin yekdil qərarı ilə Azərbaycanın COP29-un ev sahibi seçilməsi dünya miqyasında ölkəmizə və şəxsən dövlət başçısına olan böyük hörmətin əlaməti, beynəlxalq arenada oynadığımız fəal rola verilən yüksək qiymətdir.

COP29-un Liderlər Sammitinin açılış mərasimində Azərbaycan Respublikası Prezidentinin çıxışını da xüsusi qeyd etmək istərdim. Cənab Prezident öz məzmunlu və çoxhədəfli çıxışı ilə bir daha mükəmməl diplomatik məharətini və qətiyyətli mövqeyini nümayiş etdirdi, Azərbaycanın COP29-un sədri qismində yaşıl keçidin güclü lideri olacağını dünya ictimaiyyətinin diqqətinə çatdırdı.

Hörmətli deputatlar, ölkənin əsas maliyyə sənədi olan 2025-ci il dövlət və icmal büdcə layihələri ilə bağlı Milli Məclisin plenar iclaslarında müzakirələr yüksək səviyyədə təşkil olunub və layihələr qəbul edilib. Buna görə hörmətli Sahibə xanım başda olmaqla Milli Məclisin rəhbərliyinə öz adımdan və hökumət üzvləri adından təşəkkürümü ifadə edirəm.

Sentyabrın 26-da cənab Prezidentin sədrliyi ilə keçirilən iqtisadi məsələlərə həsr olunmuş müşavirədə dövlət başçısının qeyd etdiyi kimi, "ilin əvvəlindən iqtisadi inkişaf gözlənilən səviyyədədir və bu il iqtisadiyyatımız

üçün uğurlu olacaq. İlin əvvəlindən əldə edilmiş nəticələr və iqtisadi göstəricilər də bunu təsdiqləyir".

Bununla bağlı bəzi makroiqtisadi göstəriciləri qeyd etmək istərdim. Artıq 11 ayda iqtisadi artım 4,1 faiz olmuşdur, o cümlədən qeyri-neft sektorumuz 6,4 faiz artmışdır. Strateji valyuta ehtiyatlarımız 72 milyard dolları ötmüşdür. Birbaşa xarici dövlət borcumuz ümumi daxili məhsulun cəmi 7,3 faizini təşkil edir.

Profisitli tədiyə balansı şəraitində valyuta bazarında tarazlığın qorunması, manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi və bunun idxal qiymətlərinə azaldıcı təsiri inflyasiyanın aşağı səviyyədə qalmasını şərtləndirmişdir. Hökumət tərəfindən təsdiq edilmiş müvafiq Tədbirlər Planının icrası da antiinflyasiya tədbirlərinə öz töhfəsini vermişdir.

Dünya ərzaq qiymətlərinin nisbətən bahalaşmasına, əsas ticarət tərəfdaşlarında yüksək inflyasiyaya baxmayaraq, 2024-cü ilin 11 ayında Azərbaycanda orta illik inflyasiya 2 faiz, illik inflyasiya isə 4,4 faiz olmuşdur.

Hazırda dünyada və regionda davam edən geosiyasi gərginliklərə, iqlim dəyişikliklərinə, əmtəə bazarlarında qiymətlərin volatilliyinə baxmayaraq, ölkəmizdə makroiqtisadi və maliyyə sabitliyi təmin olunmuşdur.

Hörmətli deputatlar, növbəti il və ortamüddətli dövr üçün büdcə siyasəti əsas hədəflər, həmçinin cənab Prezidentin hökumət qarşısında qoyduğu əsas prioritet vəzifələr nəzərə alınmaqla hazırlanmışdır:

- ölkənin hərbi, müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin gücləndirilməsi;
- "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulan

tədbirlərin həyata keçirilməsi;

- Qarabağ və Şərqi Zəngəzurun bərpası, yenidən qurulması, ölkə iqtisadiyyatına reinteqrasiyası və ərazilərə Böyük Qayıdışın təmin edilməsi;
- əhalinin sosial müdafiəsinin gücləndirilməsi və rifah halının yaxşılaşdırılması üçün əlavə sosial dəstək paketinin həyata keçirilməsi;
- dayanıqlı iqtisadi artımın dəstəklənməsi, makroiqtisadi sabitliyin və büdcə dayanıqlığının təmin olunması;
- Naxçıvan Muxtar Respublikasının dövlət proqramında nəzərdə tutulan tədbirlərin icrası.

Beləliklə, büdcənin hazırlanması zamanı cari vəzifələr, milli inkişaf məqsədlərinə nail olmaq üçün prioritet xərc istiqamətləri və yeni layihələrin uğurlu həyata keçirilməsi üçün büdcədə zəruri maliyyə təminatı yaradılmışdır.

2025-ci ildə dövlət büdcəsinin gəlirləri təxminən 38,4 milyard manat, xərcləri isə 41,4 milyard manat proqnoz edilir. Dövlət büdcəsi kəsirinin ÜDM-ə nisbəti 2,4 faizdir. Büdcə layihəsi müasir Azərbaycanın tarixində ən böyük büdcədir.

Makroiqtisadi proqnozlara əsasən 2025-ci ildə ümumi daxili məhsulun 3,5 faiz, qeyri-neft sektoru üzrə isə 4,9 faiz real artım tempi proqnozlaşdırılır.

Hörmətli deputatlar, ənənəvi olaraq hərbi gücümüzün artırılması bizim üçün bir nömrəli prioritetdir. Gələn ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərcləri ümumi büdcə xərclərinin 20,6 faizini təşkil edir və mütləq rəqəm olaraq bu gün, – maliyyə naziri də dedi, təkrarlayıram, – 8,6 milyard manat olacaqdır.

Möhtərəm cənab Prezidentin apardığı uğurlu sosial-iqtisadi siyasət nəticəsində artan gəlirlərimiz hesabına əha-

linin sosial müdafiəsinin və rifah halının davamlı yaxşılaşması təmin edilir. 2025-ci ildə büdcənin əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı olacaqdır. Şəhid ailələrinə, qazilərə diqqət və qayğı dövlət siyasətinin prioritetləri sırasında daim qalmaqda davam edəcəkdir. Ümumilikdə, bütün istiqamətlər üzrə sosial yönümlü xərclər dövlət büdcəsi xərclərinin 40 faizini üstələyir.

2025-ci ildə minimum əməkhaqqı, pensiya, müavinətlər və digər sosial ödənişlərdə yeni artımlar 3 milyona yaxın vətəndaşı əhatə edəcəkdir. Son 5 ildə isə həyata keçirilən 4 sosial islahat paketi 7 milyard manat olmaqla 4 milyon vətəndaşı əhatə etmişdir.

Müasir təhsilin inkişafı və əhalinin keyfiyyətli və qabaqcıl tibbi xidmətlərə çıxışının yaxşılaşdırılması məqsədləri üçün növbəti ilin dövlət büdcəsində daha çox vəsait nəzərdə tutulmuşdur.

İqtisadi artımın dayanıqlığı və rəqabət qabiliyyətinin yüksəldilməsi əmək bazarındakı vəziyyətdən və insan kapitalının keyfiyyətindən bilavasitə asılıdır. Ölkəmizdə müasir, vətənpərvər gəncliyin inkişafı üçün innovativ, müasir təhsilə çıxışın artırılması, peşə təhsili və peşə hazırlığı ilə bağlı proqramların genişləndirilməsi, rəqəmsal biliklərin öyrədilməsi, rəqabət qabiliyyətli kadrların hazırlanması istiqamətində büdcədən zəruri dövlət dəstəyi göstəriləcəkdir.

Səhiyyə sahəsində aparılan davamlı islahatların nəticəsində cari ildə tibbi xidmətlər zərfi çərçivəsində göstərilmiş xidmətlərin sayında 21 faiz artım olmuşdur. Maliyyə təminatı nəzərə alınaraq, xidmətlər zərfinin genişləndirilməsi daim hökumətin diqqətindədir.

Sağlamlıqla bağlı hamımızı narahat edən və deputatlar tərəfindən qaldırılan bəzi məsələlərin zərfə daxil edilməsi hazırda hökumətin gündəliyindədir.

Hörmətli deputatlar, möhtərəm Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərdə bərpa, quruculuq işləri uğurla davam edir. 2020-ci ildən başlayaraq 2025-ci il də daxil olmaqla dövlət büdcəsindən bərpa, quruculuq işlərinə cəmi 22 milyard manata yaxın vəsait ayrılmışdır, o cümlədən 2025-ci ildə 4 milyard manat nəzərdə tutulub.

Böyük Qayıdış çərçivəsində keçmiş məcburi köçkünlərin işğaldan azad olunmuş ərazilərə köçürülməsi prosesi uğurla həyata keçirilir. Bu günə qədər 2417 ailə və ya 9306 nəfər vətəndaşımız köçürülmüşdür.

Hörmətli deputatlar, cənab Prezident İlham Əliyevin dərin strateji baxışı və diplomatik səyləri nəticəsində Avrasiyanın mühüm nəqliyyat tranzit qovşağı olan Azərbaycanın reallaşdırdığı və qoşulduğu beynəlxalq enerji layihələri ölkəmizə siyasi və iqtisadi dividendlər qazandırır. Ölkəmiz regionda enerji və nəqliyyat sahələrində meqa investisiya layihələri həyata keçirir. Eyni zamanda, ölkəmizin yaşıl enerji mənbəyi kimi Avropanın aparıcı tərəfdaşlarından birinə çevrilməsi əsas hədəflər sırasındadır. 2022-ci ildə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında imzalanmış saziş məhz bu məqsədlərə xidmət edir.

Hökumət 2030-cu ilədək enerji balansında bərpa olunan enerji payının 30 faizə yüksəldilməsini planlaşdırır. Naxçıvan, Qarabağ və Şərqi Zəngəzur regionları yaşıl enerji zonaları elan edilib. Yaşıl keçid və bərpa olunan

enerji sahəsində xarici tərəfdaşlarımızla birgə həyata keçirdiyimiz layihələr, həmçinin ikitərəfli və çoxtərəfli sazişlər hökumətin yaşıl gündəliyinin əsasını təşkil edir.

Cənab Prezidentin tapşırıqlarına uyğun olaraq, Azərbaycan ərazisindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin tranzit potensialının artırılması istiqamətində kompleks tədbirlər həyata keçirilir. Şimal–Cənub və Şərq–Qərb dəhlizlərində fəal iştirak Azərbaycanın Asiya və Avropa üçün strateji tərəfdaş kimi əhəmiyyətini artırır.

Ötən ay cənab Prezidentin fərmanı ilə Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi – AZCON yaradıldı ki, bu, nəqliyyat və kommunikasiya sahələrində fəaliyyət göstərən dövlət müəssisələrinin işinin təkmilləşdirilməsinə və onların vahid prinsiplərə uyğun idarə olunmasına xidmət edəcəkdir.

Hörmətli deputatlar, sizlərin əksəriyyətiniz təbii olaraq təmsil etdikləriniz rayonlarda kommunal xidmətlər, məşğulluq, məktəblərin və yolların təmiri və digər sosial-iqtisadi məsələlərin həll edilməsi üçün təkliflərlə çıxış edirsiniz.

Hökumət əhali qarşısında bütün sosial öhdəlikləri tam şəkildə yerinə yetirmək, sahibkarlıq fəaliyyətini dəstəkləmək və gələcək iqtisadi artıma zəmin yaratmaq üçün bütün resurslarını səfərbər edir. Təbii olaraq büdcədən gözləntilər hər zaman çoxdur və yüksəkdir. Lakin qaldırılan bütün məsələlərin hamısı eyni zamanda və bir il ərzində həll edilə bilməz. Büdcə bizim imkanlarımızı tam şəkildə əks etdirir. Gələn il büdcə imkanları çərçivəsində əsas vəzifələrin icrasının təmin edilməsi üçün əlimizdən gələni edəcəyik.

Bildirmək istərdim ki, ölkə ərazisində qazlaşma səviy-

yəsi bu gün 96,6 faizdir. Bu göstəriciyə görə ölkəmiz MDB və regionda olan digər qonşu ölkələrin hamısını qabaqlayır. Buna baxmayaraq, yerdə qalan 3,4 faiz abonentlərin təbii qazla təmin olunması üçün maliyyə imkanları çərçivəsində mərhələli şəkildə işlər görüləcəkdir. Hazırda bu istiqamətdə hökumətin aidiyyəti qurumları ilə yerli icra orqanları arasında müzakirələr aparır. Eyni zamanda, onu da qeyd edim ki, paralel olaraq işğaldan azad olunmuş ərazilərdə qazlaşdırılma layihələri də həyata keçirilir.

Onu da nəzərinizə çatdırım ki, 2024-cü ildən başlayaraq möhtərəm cənab Prezident cənab İlham Əliyevin tapşırığı ilə uzun illər blokada şəraitində olan Naxçıvanın qaz təminatı yerinə yetirilir. Ona baxmayaraq ki, bu gün Naxçıvanda qaz təminatı 100 faizdir, Prezident İlham Əliyevin təşəbbüsü ilə Türkiyə ərazisindən Naxçıvana ikinci xəttin çəkilişinə hazırlıq, demək olar ki, ən yüksək səviyyədədir.

Ümumtəhsil məktəblərinin vəziyyəti ilə bağlı qeyd etmək istərdim ki, hazırda 473 məktəbin əsaslı təmirinə ehtiyac var. Bu, ölkədəki bütün məktəblərin 10 faizidir. Bunlardan 123 məktəbdə təmir-tikinti işlərini 2025-ci ildə aparılmasını nəzərdə tutmuşuq. Bu işlər mərhələli şəkildə davam etdiriləcək və qalan digər məktəblərin təmirinin 2028-ci ilədək tamamlanması planlaşdırılır.

Deputatları narahat edən məsələlərdən biri də yol infrastrukturu ilə bağlıdır. Ən əsas da daputatlar regionlarda yerli yollarla bağlı məsələləri qaldırırlar. 2021-ci ildən bu günədək ölkə üzrə 2700 kilometrdən çox avtomobil yolları yenidən qurulmuş və təmir olunmuşdur. Bunun tam yarısı yerli əhəmiyyətli yollardır, rəqəm olaraq 1430 kilometr. Bununla yanaşı, işğaldan azad edilmiş

ərazilərdə uzunluğu 3200 kilometr olan 45 yol layihəsi icra edilir, o cümlədən orada, işğaldan azad edilmiş ərazilərdə 1275 kilometrlik yollar yerli yollardır.

Qeyd etməliyəm ki, dövlət büdcəsində 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasında nəzərdə tutulan layihələrin maliyyələşdirilməsinə 1,1 milyard manat və investisiya xərclərindən sosial və infrastruktur təyinatlı layihələrə 540 milyon manat vəsait ayrılacaqdır ki, bu da bir çox məsələlərin həll edilməsi üçün istifadə olunacaq.

Su təsərrüfatında yaranmış problemlərin həlli su resurslarının məhdudluğu şəraitində hökumət qarşısında duran ən ciddi vəzifələrdən biridir. Cənab Prezident tərəfindən 2024-cü il 10 oktyabr tarixində "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya" imzalanmışdır. Bu strategiya 2024−2040-cı illəri əhatə etməklə ölkədə su ehtiyatlarının artırılması, su itkilərinin azaldılması, su sahəsində infrastrukturun və idarəetmənin təkmilləşdirilməsi tədbirlərini nəzərdə tutur. Su ehtiyatlarından səmərəli istifadə, fermerlərin suvarma suyu ilə təchizatı və suvarma sahələrinin genişləndirilməsi üçün növbəti ilin dövlət büdcəsindən 546 milyon manat ayrılacaqdır.

Əsas vəzifələrdən biri də ərzaq təhlükəsizliyinin təmin edilməsi, idxalın əvəzləşdirilməsi və ixrac coğrafiyasının şaxələndirilməsidir. 2025-ci ilin dövlət büdcəsində ərzaq təhlükəsizliyi tədbirləri üçün böyük həcmdə vəsait nəzərdə tutulur.

"Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın icrası diqqət mərkəzində saxlanılacaq və 150 milyon manat vəsait ayrılacaqdır.

Eyni zamanda, hökumət tərəfindən regionların sosial-

iqtisadi inkişafına dair növbəti 5 illik dövlət proqramının hazırlanması planlaşdırılır. Sənəddə sahibkarlığın inkişafının dəstəklənməsi, kənd yerlərində infrastrukturun inkişafı və məşğulluğun artırılması, turizm potensialının reallaşdırılması tədbirləri  də nəzərdə tutulub.

Deputatlar, eləcə də Hesablama Palatası tərəfindən büdcə sənədləşməsi və planlaması, neftin qiyməti, büdcə qaydası və dayanıqlığı, publik hüquqi şəxslər, borca xidmət xərcləri və ortamüddətli xərclər çərçivəsi ilə bağlı təkliflər və qeydlər edilmişdir. Milli Məclisin istər plenar, istərsə də müxtəlif komitə iclaslarında büdcə layihələrinin müzakirələri zamanı qaldırılan məsələlər aidiyyəti qurumların rəhbərləri tərəfindən cavablandırılmışdır. Bununla yanaşı, bir sıra məsələlərə münasibətimi bildirmək istərdim.

Büdcə şəffaflığının və hesabatlılığın artırılması istiqamətində görülən tədbirlər nəticəsində “Açıq Büdcə İndeksi–2023” hesabatında Azərbaycanın mövqeyi kifayət qədər yaxşılaşmış və 125 ölkə arasında biz 23-cü yerdəyik. Adekvat, büdcə açıqlığına malik ölkələr qrupuna daxil olmuşuq.

Yeni büdcə mexanizminin tətbiqi ilə bağlı mövcud qanunvericilik sisteminin təkmilləşdirilməsi istiqamətində də işlər davam etdirilir.

Ortamüddətli xərclər çərçivəsinin tətbiqinə, proqram və nəticə əsaslı büdcə mexanizminə keçidlə bağlı islahatlara 2025–2028-ci illər ərzində əlavə sosial, humanitar bölmələrin də cəlb edilməsi nəzərdə tutulur.

Publik hüquqi şəxslərin sahəvi sayının və strukturunun optimallaşdırılması və əməkhaqqı sisteminin vahid yanaşma əsasında təkmilləşdirilməsi nəzərdə tutulur. Bir sözlə, büdcə vəsaitlərinin qənaətli və təyinatı üzrə istifadəsinə

nəzarət və effektivlik artırılacaqdır.

Makrofiskal proqnozlarda risklərin baza, optimist və pessimist ssenarilərdə qiymətləndirilməsi aparılır və qarşısının alınması üçün tədbirlər nəzərdə tutulur. Büdcə qaydası makroiqtisadi dayanıqlığı, büdcə intizamını, Dövlət Neft Fondunun aktivlərinin dayanıqlı səviyyədə qorunmasını təmin edir və onun illik əməliyyat hədəflərinə İqtisadi Şurada büdcə müzakirəsi zamanı baxılır.

Ümumiyyətlə, qaldırılan bir çox sosial-iqtisadi, monetar və fiskal siyasət, dövlət borcu, makroiqtisadi siyasətin koordinasiyası və digər məsələlərə İqtisadi Şuranın illik fəaliyyət planına uyğun olaraq baxılır, müvafiq qərarlar qəbul olunur və aidiyyəti üzrə razılaşdırılır.

Növbəti ildə də hökumətin əsas vəzifələrindən biri balanslaşdırılmış büdcə, dayanıqlı iqtisadi artım üçün makroiqtisadi sabitliyin və inflyasiyanın birrəqəmli səviyyəsinin təmin edilməsi olacaqdır.

Hörmətli millət vəkilləri, büdcə müzakirələri zamanı qaldırılan məsələlər hökumət və aidiyyəti qurumlar tərəfindən daim diqqətə alınacaq, qeyd edilən problemlərin həlli istiqamətində mümkün olan bütün zəruri tədbirlər görüləcəkdir.

Çıxışımın sonunda bir daha aparılan müzakirələrə görə, hörmətli xanım sədr, Sizə və deputatlara minnətdarlığımızı bildirirəm. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox hörmətli cənab Baş nazir, çıxışınıza görə çox sağ olun. Hörmətli hökumət üzvləri, ölkəmizin inkişafı naminə dəyərli fəaliyyətinizdə, dövlət büdcəsinin və digər büdcə sənədlərinin icrasında biz sizə uğurlar arzulayırıq və sizi hörmətlə yola salırıq. Hörmətli həmkarlar, 1-2 dəqiqəlik fasilə.

Hörmətli həmkarlar, biz işimizə davam edirik. Hörmətli həmkarlar, gündəliyin növbəti iki məsələsi Milli Məclisin qərar layihələridir.

11-ci məsələ Azərbaycan Respublikası Milli Məclisinin 2025-ci il üçün xərclər smetası haqqında, 12-ci məsələsi isə Azərbaycan Respublikası Hesablama Palatasının 2025-ci il üçün xərclər smetası haqqında qərar layihələridir. Hörmətli həmkarlar, yadınızdadırsa, mən büdcə zərfinin birinci oxunuşu zamanı qeyd etmişdim ki, qanunvericiliyə uyğun olaraq, bu qərar layihələri dövlət büdcəsi ilə eyni vaxtda səsə qoyulub qəbul edilməlidir. Xatırlayırsınız ki, bu məsələlər barəsində noyabrın 27-də məlumat verilmişdir. Beləliklə, indi xahiş edirəm, layihələrə münasibət bildirək. Səsə qoyum, ancaq görürəm ki, Aydın müəllimin sözü var. Aydın müəllim, buyurun.

**Aydın Mirzəzadə.** Təşəkkür edirəm. Xanım sədr, çıxışım qısa olacaq. Biz deputatlıq fəaliyyəti zamanı vaxtaşırı həm Milli Məclisin Aparatına, həm də İşlər İdarəsinə müəyyən məsələlərə dair bizə kömək edilməsinə, problemlərin həll edilməsinə görə müraciət edirik və həmişə onlardan dəstək görürük. Fürsətdən istifadə edib bizə həmişə dəstək verdiklərinə, kömək göstərdiklərinə, hansı isə bir problemin həllində yanımızda olduqlarına görə onlara öz təşəkkürümü bildirmək istəyirəm.

**Sədrlik edən.** Çox sağ olun, Aydın müəllim. Hörmətli həmkarlar, mən indi qanun layihələrini bir-bir səsə qoyacağam. Beləliklə, sizdən Milli Məclisin xərclər smetası haqqında qərar layihəsinə münasibət bildirməyinizi xahiş edəcəyəm. Buyurun.

**Səsvermənin nəticələri** (saat 12.20 dəq.)

| | |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qərar qəbul edildi.

İndi isə xahiş edirəm, Hesablama Palatasının xərclər smetası haqqında qərar layihəsinə münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.20 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bu qərar da qəbul edildi.

Hörmətli həmkarlar, bizim gündəliyimizdə iki məsələ qalır. Gündəliyin 13-cü məsələsi "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qeyd edim ki, layihə üçüncü oxunuşda təqdim olunur. Qanun layihəsinə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb. Məsələyə dair məlumat vermək üçün, Azər müəllim, yenə də mən Sizə söz verirəm. Buyurun.

**Azər Əmiraslanov**. Təşəkkür edirəm, xanım sədr. Təqdim olunan qanun layihəsi həm birinci, həm də ikinci oxunuşlarda müzakirə edilmişdir. Bu barədə ətraflı məlu-

matlar verilmişdir. Ümumiyyətlə, qanun layihəsinə hər hansı əlavə və dəyişiklik edilməyib. Bunu nəzərə alaraq, hörmətli xanım sədr, tərəfinizdən bu layihənin üçüncü oxunuşda da səsə qoyulmasını xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Azər müəllim, çox sağ olun. Hörmətli həmkarlar, mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.21 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 2 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 104 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyimizin sonuncu məsələsinə çatdıq. Bu, 14-cü məsələdir. Bu məsələ Cinayət Məcəlləsində və daha iki məcəllədə, "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunda və digər 4 qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Onu da deyim ki, layihə birinci oxunuşda müzakirəyə təqdim edilir. Odur ki, xahiş edirəm, çıxışlarda birinci oxunuşun tələblərini nəzərə alasınız. Layihəyə Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Arzu Nağıyevə söz verirəm. Arzu müəllim, buyurun, məlumat verin.

**Arzu Nağıyev,** *Milli Məclisin Müdafiə, təhlükəsizlik və*

*korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, qonaqlar və media nümayəndələri. Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin göstərişinə əsasən hərbi sahədə aparılan islahatlar xalqımız tərəfindən alqışlanır və bu, mühüm sahəyə olan diqqətin təzahürü kimi qiymətləndirilir.

Bu islahatlar arasında ən mühüm məsələlərdən biri də həqiqi hərbi xidmətə çağırış məsələsidir. Bu istiqamətdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin apardığı işlər, şəffaflıq da təqdirəlayiq hal kimi dəyərləndirilir.

44 günlük müharibədə qalibiyyətimizdən sonra hərbi çağırışla bağlı bir sıra qanunlarda dəyişikliklər nəzərdə tutulub və onları bu gün birinci oxunuşda təqdim etmək istəyirəm.

Cənab Prezident İlham Əliyevin imzası ilə daxil olmuş qanun layihəsində bir sıra məcəllə və qanunlarda – Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Əhalinin sağlamlığının qorunması haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Psixiatriya yardımı haqqında", "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi nəzərdə tutulur.

Müzakirəmizə təqdim olunan qanun layihəsi müddətli həqiqi hərbi xidmətə çağırılan vətəndaşların tibbi şəhadətləndirilməsi sahəsində göstərilən xidmətlərin optimallaşdırılması və elektronlaşdırılması, habelə hərbi xidmətə

çağırışla bağlı müvafiq müddəaların dəqiqləşdirilməsi məqsədi ilə hazırlanmşdır. Layihəyə əsasən "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanuna "tibbi şəhadətləndirilmə", "elektron kabinet"" və "çağırış vərəqəsi" anlayışları əlavə edilir. Təklif olunan dəyişikliklərdə vətəndaşların hərbi vəzifələrinin icrası ilə bağlı xidmətlərin müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sistemi vasitəsi ilə həyata keçirilməsi və hərbi vəzifələrinin icrası ilə əlaqədar vətəndaşlar tərəfindən elektron kabinetlərin yaradılması nəzərdə tutulur. Layihəyə əsasən çağırışaqədər yaş həddində olan vətəndaşlara və çağırışçılara çağırış vərəqələri elektron formada vətəndaşın elektron kabinetinə yerləşdiriləcəkdir və bu barədə SMS məlumat çatdırılacaqdır.

Layihədə aidiyyəti dövlət orqanları arasında tibbi müayinənin nəticələrinin elektron əldə edilməsi, əlilliyi müəyyən olunmuş çağırışçıların tibbi müayinəsinə dair müvafiq qərarın onların əyani formada tibbi müayinəsi aparılmadan çağırışçıya dair elektron informasiya sistemində mövcud olan məlumatlar əsasında qəbul edilməsi, müvafiq dövlət orqanlarının sistemlərinin qarşılıqlı inteqrasiyası ilə bağlı müddəalar əks olunub.

Bundan başqa, hörmətli xanım sədr, layihədə müddətli həqiqi hərbi xidmətə çağırış üçün nəzərdə tutulan son yaş həddinin 35-dən 30 yaşa endirilməsi təklif olunur.

Eyni zamanda, layihədə ilkin hərbi qeydiyyatın müddəti, habelə təşkilatlar tərəfindən ilkin hərbi qeydiyyata alınmalı olan vətəndaşların siyahılarının müvafiq icra hakimiyyəti orqanına təqdim edilməsi müddəti uzadılır. Çağırışçılar barəsində çağırış komissiyaları tərəfindən qəbul

edilmiş qərarlar onlara 10 gün müddətində deyil, 3 gün müddətində bildiriləcəkdir. Layihədə müddətli həqiqi hərbi xidmətə çağırılmalı olan vətəndaşların tibbi müayinədən keçməsi müddəti çağırışa 2 ay qalmış müəyyən olunur.

Yuxarıda qeyd olunanlarla yanaşı, layihədə müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilərək hərbi qeydiyyatdan çıxarılan vətəndaşların dairəsi müəyyən olunur və təhsili davam etdirmək üçün çağırışa möhlət verilməsi ilə bağlı maddə yeni redaksiyada verilməklə dəqiq tənzimləmə qanunda əks olunur. Belə ki, bakalavriatda və magistraturada əyani təhsil alan tələbələrə çağırışa möhlət onların müvafiq olaraq 24 və 26 yaşı tamam olanadək veriləcəkdir. Dövlət proqramları və tələbə mübadiləsinə dair hökumətlərarası təqaüd proqramları çərçivəsində təhsil alan çağırışçılar istisna təşkil edəcəkdir.

"Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" Qanunda təklif edilən digər dəyişikliyə əsasən səfərbərlik üzrə dövlət xidmətinin çağırışdan möhlət verilməsi haqqında qərarı müvafiq icra hakimiyyəti orqanının informasiya sistemində yerləşdiriləcək və həmin məlumat vətəndaşın tanış olması üçün Elektron Hökumət İnformasiya Sisteminə göndəriləcəkdir.

Cinayət Məcəlləsinin 321.2-ci maddəsinə əlavə edilməsi təklif olunan "Qeyd" hissəsində "çağırışdan boyun qaçırma" əməlinin nədən ibarət olması dəqiq müəyyən olunur. Belə ki, "çağırışdan boyun qaçırma" dedikdə vətəndaşların üzürlü səbəblər olmadan tibbi müayinədən müddətli həqiqi hərbi xidmətə, toplanışlara və səfərbərlik üzrə hərbi xidmətə çağırış üzrə gəlməməsi başa düşülür. Buna uyğun olaraq, Miqrasiya Məcəlləsində ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması hal-

larına yeni halın əlavə edilməsi təklif olunur. İnzibati Xətalar Məcəlləsində çağırışçılar və hərbi vəzifəlilər haqqında aidiyyəti orqanlar tərəfindən məlumatların vaxtında verilməməsinə görə inzibati məsuliyyəti müəyyən edən maddənin dispozisiyası dəqiqləşdirilir və bu inzibati xətaya görə məsuliyyət sərtləşdirilir.

Hörmətli həmkarlar, digər qanunlarda dəyişikliklər isə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunda mövcud olan müddəalardan və bu layihə ilə təklif edilən dəyişikliklərdən irəli gəlir. Qanun layihəsi Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəhbərliyi və Milli Məclisin müvafiq şöbəsinin iştirakı ilə müzakirə edilib və yekdilliklə birinci oxunuşda plenar iclasa tövsiyə edilib.

Komitə iclasındakı müzakirələrdən sonra sosial şəbəkələrdə və kütləvi informasiya vasitələrində olan materialların təhlili göstərir ki, dəyişikliklər müsbət hal kimi dəyərləndirilir və Ali Baş Komandan Prezident cənab İlham Əliyevin göstərişinə əsasən hərbi sahədə aparılan islahatlar alqışlanır.

Xanım sədr, bir məsələyə də aydınlıq gətirmək istəyirəm. Sosial şəbəkələrdə, kütləvi informasiya vasitələrində bir neçə sual, ümumiyyətlə, mütəmadi olaraq səsləndirilir. Azərbaycanda alternativ xidmətlə bağlı. Qeyd etmək istərdim ki, Konstitusiyanın 76-cı maddəsində alternativ xidmətlə bağlı belə bir müddəa var. Bu xidmət dini, mənəvi və ideoloji səbəblərlə hərbi xidmətə getməyə etiraz edən şəxslərə təklif olunur və onların hər biri hərbi xidmətin əvəzinə başqa bir ictimai xidmət göstərir. Tez-tez bunu təkrarlayırlar, alternativ xidmət hələ pullu xidmət demək deyil. Dünya praktikasında da belədir. Əgər adi çağırışçı bir il xidmət edirsə, alternativ xidmət iki dəfə

artıq olur. Bu da, əsasən, sülh dövründə olur, müharibə vaxtı olmur və konkret olaraq harada xidmət keçmələri haqqında müvafiq məlumatlar verilir. Bununla əlaqədar həm Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə, eyni zamanda, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinə müraciətlərimizdən məlum oldu ki, bu gün təxminən 15-16 nəfər belə vətəndaşımız var. Bunlar "Yeqova şahidləri" dini icmasına məxsusdurlar və bir daha qeyd edirəm ki, onlar alternativ xidmət keçmək istəyirlər. Ümumiyyətlə, buna maraq ondan ibarətdir ki, kiməsə, hətta düşmənə qarşı da silah işlətmək olmaz. Bunların əqidəsi, əsasən, bundan ibarətdir. Bu cür xidmət dinc vaxtlar həyata keçirilməlidir. Müraciət etməzdən əvvəl həmin şəxs dini və ideoloji səbəblərdən hərbi xidmətə qarşı olan mövqeyini təsdiq edən sənədləri təqdim etməlidir.

Digər məsələ, müqavilə əsasında ordu. Məlum məsəldir ki, belə ölkələrin sayı həddindən artıq çoxdur. Müqavilə əsasında ordu könüllülük əsasındadır. Tam şəkildə könüllülük əsasında komplektləşdirilmə olandan sonra bu məsələ ilə bağlı nədənsə danışmaq olar. Bu gün bu məsələ bu qanunda öz əksini tapmır.

Digər sual pullu xidmətlə bağlıdır. Bunu da bəzən alternativ xidmət kimi qəbul edirlər. Bu məsələ də bu qanunda öz əksini tapmır. Bir il, il yarım qulluq etmək məsələsi. Bəzən belə suallar qalxır ki, ali təhsillilər bir il, təhsili olmayanlar əksinə bir il, il yarım qulluq etməlidir. Azərbaycan Konstitusiyasında onların təhsilinə uyğun olaraq, hər hansı müddətdə, bir il və ya il yarım qulluq etmək barədə belə bir maddə yoxdur. O, ancaq yaşa görədir və düşünürəm ki, hamı qanun qarşısında bəra-

bərdir və gələcəkdə də bu məsələyə qayıdılması artıq müvafiq qanunlarda dəyişiklik edilməsi ilə baş tuta bilər. Bütün bunlar kütləvi informasiya vasitələrində, sosial şəbəkələrdə müzakirə olunan məsələlərdir.

Komitədə tam şəkildə müzakirə olunub, sallara cavab verilib və yekdilliklə birinci oxunuş üçün plenar iclasa tövsiyə olunub. Səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Hörmətli həmkarlar, qanun layihəsinə daha iki komitədə baxılmışdır. Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır və mən indi komitənin rəyini çatdırmaq üçün komitənin sədri hörmətli Əli Hüseynliyə söz vermək istəyirəm. Əli müəllim, buyurun, məlumat verin.

**Əli Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli sədr. Bizim komitənin profilinə uyğun olaraq, Cinayət Məcəlləsində, Miqrasiya Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində hörmətli həmkarım Arzu müəllimin məruzəsindən irəli gələrək əlavələr və dəyişikliklər edilib. Bu barədə onun özü də məlumat verdi. Komitəmizin rəyi müsbətdir. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. Səhiyyə komitəsində də baxılıb. Səhiyyə komitəsinin rəyini bildirmək üçün, Əhliman müəllim, Sizdən xahiş edəcəyəm. Buyurun.

**Əhliman Əmiraslanov**. “Əhalinin sağlamlığının qorunması haqqında” və “Psixiatriya yardımı haqqında” qanunlara təklif olunan dəyişikliklər uyğunlaşdırma xarakter daşıyır. Səhiyyə komitəsinin rəyi müsbətdir. Qanun la-

yihəsini səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Əhliman müəllim. Hörmətli həmkarlar, müzakirəyə keçməzdən əvvəl məlumat verim ki, bu gün bizim qonaqlarımız var. Azər Məmmədov – Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti rəisinin müavini, Azər müəllim Babayev – Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Həqiqi Hərbi Xidmətə Çağırış Baş İdarəsinin rəisi və Anar müəllim Əkbərov – Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Hüquqi təminat şöbəsinin müdiri. Xoş gəlmisiniz.

Hörmətli həmkarlar, indi isə biz müzakirəyə keçirik. Vüqar Bayramov. Vüqar müəllim harada oturub?

**Vüqar Bayramov**. Çox təşəkkür edirəm, xanım sədr. Xanım sədr, cənab Baş nazirin gəlməsi ilə bağlı olaraq mən yerimi dəyişmişəm. Çox təşəkkür edirəm.

Hörmətli xanım sədr, hörmətli millət vəkilləri. Mən də təqdim olunan qanun layihəsini dəstəkləyirəm. Kifayət qədər vacib, eyni zamanda, bu sahədə islahatların dəstəklənməsi baxımından mühüm bir qanun layihəsidir. Xüsusən nəzərə alsaq ki, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə hərbi sahədə islahatlar genişlənir, təbii ki, bu qanun layihəsi məhz bu islahatların genişlənməsi və eyni zamanda, davamı baxımından vacib sənədlərdən biridir. Nəzərə alsaq ki, son illər bu sahədə həm şəffaflığın güclənməsi müşahidə olunur, həm də aparılan struktur islahatları praktik olaraq hərbi xidmət keçməklə bağlı prosedurların sayına və eləcə də bu sahədə şəffaflığın gücləndirilməsinə xidmət edib.

Bu baxımdan mən qanun layihəsi ilə bağlı bir sıra

konseptual məsələlərə diqqət çəkmək istərdim. Əvvəla, təbii, qanun layihəsi birmənalı şəkildə bu sahədə şəffaflığın gücləndirilməsinə xidmət edəcək, çünki prosedurların sayına təsir göstərir. Eyni zamanda, digər mühüm məqamlardan biri qanun layihəsində elektron xidmətlərdən daha çox istifadə olunması və istər çağırış vərəqəsinin, istər digər sənədlərin, istərsə də möhlətlə bağlı sənədin elektron olaraq təqdim olunmasıdır. Bu, təbii ki, birbaşa ünsiyyətin minimumlaşdırılmasına və bu sahədə də elektron xidmətlərdən daha çox istifadə olunmasına imkan yaradır. Bu baxımdan, təbii ki, qanun layihəsi elektronlaşmanı dəstəklədiyi üçün nəticə etibarı ilə şəffaflığın gücləndirilməsinə xidmət edir.

Təhsil pillələri üzrə dəqiqləşdirilmənin aparılması məsələsi də səmərəlilik meyarı baxımından çox vacibdir. Çünki qanun layihəsi birmənalı şəkildə bu sahədə və xüsusən də bütün təhsil pillələri üzrə dəqiqləşmənin aparılmasına və tətbiq edilməsinə imkan yaradır. O baxımdan, təbii ki, həm şəffaflığın artırılması, həm səmərəliliyin gücləndirilməsi, həm də bu sahədə islahatların dərinləşməsi baxımından qanun layihəsini dəstəkləyirəm.

Birinci oxunuşun tələblərinə uyğun olaraq, mən iki məsələ ilə bağlı hörmətli Arzu müəllimin rəyini öyrənmək istərdim. Birincisi, qeyd olunduğu kimi, hərbi xidmətkeçmə yaşının 35-dən 30 yaşa endirilməsi nəzərdə tutulur və mənim sualım ondan ibarətdir ki, hərbi xidmətkeçmə yaşının 35-dən 30-a endirilməsi hərbi xidmətçilərin sayına necə təsir göstərəcək? Yəni hazırda 30-35 yaş arasında olan hərbçilərimizin sayı nə qədərdir? Bu yaşın dəyişməsi, bütövlükdə, müddətli hərbi xidmət keçən hərbçilərimizin sayına necə təsir göstərəcək?

Eyni zamanda, qeyd olunduğu kimi, qanun layihəsi prosedurların dəqiqləşməsini özündə ehtiva edir. Mənim ikinci sualım ondan ibarətdir ki, bütövlükdə, çağırış, möhlət və digər istiqamətlərdə qanun layihəsi prosedurların sayına necə təsir göstərəcək və bu prosedurların sayının azalmasına gətirib çıxardacaqmı?

Bütövlükdə, qanun layihəsini dəstəkləyirəm və hörmətli həmkarlarımızdan da dəstəkləmələrini xahiş edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Aydın Hüseynov. Buyurun.

**Aydın Hüseynov**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, hörmətli media nümayəndələri. Bəri başdan deyim ki, qanun layihəsini tamamilə dəstəkləyirəm. Çünki qanun layihəsi birinci növbədə gənclərimizlə, gənclərimzin təhsil pillələri ilə və bütövlükdə, hərbi çağırışçılarla bağlıdır. O da məlumdur ki, Azərbaycan gəncləri bu gün elm sahəsində, təhsil sahəsində, əmək sahəsində ən yüksək nailiyyətləri əldə edən gənclərdir. Azərbaycan gəncinin müasir dövrümüzdə ən böyük nailiyyəti və ən böyük fəxarət gətirəcək, qürur gətirəcək bir tarixi isə Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə Zəfər əldə etməsi oldu.

O da məlumdur ki, hər bir Azərbaycan gənci özünün hərbi çağırışını, konstitusion vəzifəsindən daha çox vətənə sədaqət, vətənə xidmət kimi dəyərləndirir. Təsadüfi deyildir ki, 44 günlük müharibədə bir nəfər də olsun gənc hərbi çağırışdan yayınmadı. Əksinə, Ermənistan ordusunun, – özlərinin rəsmi rəqəminə görə, – 15 min əsgəri fərarilik etdi. Bu onların rəsmi rəqəmi idi. Faktiki rəqəm isə mən hesab edirəm ki, 50 faizdən çoxdur.

Bu qanun layihəsi bir daha onu göstərir ki, Azər-

baycanda aparılan siyasətin önəmli hissələrindən biri də gənclərlə bağlıdır və qeyd etdiyim kimi, bax, bu baxımdan qanun layihəsini bir daha dəstəkləyirəm.

İkinci bir tərəfdən, qanun layihəsində ən başlıcası müddətli hərbi çağırışda tibbi şəhadətləndirmə prosesində elektronlaşma və optimallaşma prosesinin tətbiq olunmasıdır. Bu da bu sistemdə daha sistemli yanaşmanın, şəffaflığın, eyni zamanda, elektron informasiya sistemindən istifadə edilməsinin tətbiq edilməsi deməkdir. Bunu çox müsbət hal kimi dəyərləndirirəm və bir daha qeyd edirəm ki, qanun layihəsinə səs verəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Aydın müəllim. Arzu müəllim, sual verildi, indi cavab verirsiniz?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun.

**Arzu Nağıyev**. Təşəkkür edirəm, xanım sədr. Yəni 35 yaşdan 30 yaşa endirilmə məsələsi, əvvəllər bizdə, ümumiyyətlə, belə bir tendensiya olub ki, orduya 30 yaşına qədər çağırırdılar. Müharibə şəraitindən asılı olaraq ordunun komplekləşdirilməsi istiqamətində atılan addımlarla əlaqədar bu yaş həddi 35 yaşa qədər qaldırılmışdır. Bu gün ordunun komplektləşdirilməsində, yaşın aşağı salınmasında elə bir fərq yoxdur. Sadəcə olaraq, bir məsələni qeyd etmək istəyirəm. Burada fiziki hazırlıq, psixoloji yetkinlik, eyni zamanda, öyrənmə qabiliyyəti nəzərə alınmaqla, dünya standartında, dünya ordularında da, əsasən, bu addımlar atılır. Burada elə bir ciddi problem yoxdur.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsində bunlar hamısı öz əksini tapıb. Bununla bağlı lazım olsa, əgər suallar olsa, sosial şəbəkələrdə də məlumat verin.

Hörmətli həmkarlar, mən qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, indi Arzu müəllim məlumatda da dedi, bu qanun layihəsi ilə bağlı çoxsaylı söhbətlər və sair diskussiyalar gedir. Xahiş edirəm, hamınız çox düzgün məlumatlar verin. Mediada məlumat verin, sosial şəbəkələrdə camaatı məlumatlandırmaq lazımdır.

Bizim iclasımız başa çatdı. Çox sağ olun, hamıya təşəkkür edirəm. Növbəti iclasımız ayın 20-də olacaq. Sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞIN MƏTNİ

***16 dekabr 2024-cü il***

**Müşfiq Cəfərov.** Hökümətin hazırladığı büdcə zərfi Azərbaycanın yeni çağırışlarına cavab verir. Dövlət başçısının istər parlamentdəki, istərsə də dövlət əhəmiyyətli tədbirlərdə çıxışlarında büdcədə öz əksini tapmış məsələlərə hər zaman önəm verilmişdir. Təbii ki, biz millət vəkilərinin üzərinə düşən vəzifə büdcə müzakirələrində fəal iştirak etmək və büdcəni qəbul etməkdir. Mən də büdcə layihəsini dəstəkləyir və həmkarlarımı da dəstəkləməyə çağırıram.

Büdcə zərfi, əsasən, bir neçə meyarı özündə birləşdirir. Bunlar sosial xidmətlər və insanların rifahı, qeyri-neft sektorunun inkişafı, müdafiə və milli təhlükəsizlik, təhsil və insan kapitalı, yaşıl enerji və ekologiya, infrastruktur layihələri, o cümlədən Qarabağın bərpasıdır. Büdcə zərfinə əlavə edə bilməsək də, ancaq hesab edirəm, reg larımızın inkişafı üçün çox böyük önəm kəsb edən reg ların sosial-iqtisadi inkişafı proqramını biz unutmamalıyıq. 2004-cü ildən başlayan bu proqramın regionların dirçəlməsində, yeni infrastrukturun, yeni iş yerlərinin yaradılmasında çox böyük rolu oldu. Sonuncu proqram 2019–2023 cü illəri əhatə etdi. Hazırda bununla bağlı hər hansı bir proqram yoxdur. Regionların sosial-iqtisadi inkişafı hər zaman dövlət başçısının diqqət mərkəzində olmuşdur və məhz bu proqramın sayəsində dövlət başçısının iştirakı ilə bir sıra yeni infrastruktur layihələrinin, müəs-

sisələrin açılışları baş tutmuşdur. Hazırkı məqamda biz bu proqramı xərc olaraq büdcəyə əlavə edə bilməsək də, 2025-ci ildən özünümaliyyələşdirən şəhər və rayonların sayı 60-a çatdırıldı.

Cənab Prezidentin 2019-cu il 3 iyun 719 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Şəhər və rayonlar üzrə vergi orqanlarının xətti ilə dövlət büdcəsinə nəzərdə tutulan daxilolmalardan büdcə ilinin sonuna artıq daxil olan vəsaitin müəyyən hissəsinin həmin şəhər və rayonların sərəncamında saxlanılması və istifadəsi Qaydası"na uyğun olaraq, yerli gəlirlərin proqnozlaşdırılandan artıq hissəsinin 50 faizi yerli icra hakimiyyətlərinə qaytarılır və onların büdcədənkənar fondu hesab olunur. Sərəncamdan irəli gələrək bu, 50 faiz göstərilsə belə, bu, ən yaxşı halda 15 faizi keçməmişdir.

Cari ilin büdcəsini müzakirə edərkən mənim faiz bölgüsü ilə bağlı əhali sayı, şəhər və ya rayon statusuna uyğun şəkildə çıxışım olmuşdur. Hazırkı təklifim regionların sosial-iqtisadi inkişafı proqramını daim gündəmdə saxlamaq üçün regionların sosial-iqtisadi inkişafı agentliyinin yaradılmasını təklif edərdim. Yerli gəlirlərin proqnozlaşdırılandan artıq hissəsinin 50 faizi ilə agentliyin büdcəsi formalaşardı və bu proqram hər bir şəhər və rayonda dayanıqlı və davamlı şəkildə həyata keçirilərdi.

Digər bir məsələ yollarla bağlıdır. Bu, təbii ki, həm deputatı olduğumuz şəhər və rayonların yolları, həm də hər birimizin tez-tez istifadə etdiyi magistral yollardır. Hər birimiz, istər hökümət üzvləri, istərsə də millət vəkilləri qəbullara gedərkən magistral yollardan istifadə edirik. Sonuncu dəfə qəbuldan qayıdarkən yağışlı havada faciəvi bir qəzanın şahidi oldum, hətta nəinki, şahidi, qurbanı da

ola bilərdim. Gecə saatlarında yağışlı hava olduğu üçün yolu görmək mümkün deyil və yolda ciddi maneələr var. Düşünürəm ki, biz bu maneələrin qarşısını qısa zamanda almalıyıq, əks təqdirdə, yağışlı havalarda və gecə saatlarında qəzaların sayı çox ola bilər. İlk növbədə magistral yolların kənarındakı nişan dirəklərinə mütləq şəkildə tərkibində fosfor olan rənglər vurulmalıdır, ən azından onun görüntüsü ilə qaranlıqda və yağışlı havada hərəkət etmək mümkün olsun. Nəzərə alsaq ki, magistral yolları tam şəkildə işıqlandırmaq böyük bir vəsait tələb edir, necə Bakı–Ələt yolu işıqlandırılıb.

İkinci. Maneə və qəzanın səbəbi yolu iki hissəyə bölən beton bölgülər qoyulanda dönüş üçün yerlər qoyulmadı, daha sonra "Azəravtoyol" ASC bu dönüşləri çox təhlükəli şəkildə bir neçə yerdə açmalı oldu və orada bardürlərdən istifadə edərək yola müdaxilə etməli oldu. Sürücülər gecə saatlarında və yağışlı havada bu döngələrə yaxınlaşanda o maneəni görə bilmirlər. Hesab edirəm ki, döngələrdə çox təcili olaraq tərkibində fosfor olan narıncı rəngli kiçik ölçülü rezin sütunlar, – onlardan şəhər daxilində də istifadə edilir, – quraşdırmalıyıq. Yəni avtomobil betona deyil, o rezin sütunlara dəyərsə, qəzanın qarşısı alınar.

Təmsil etdiyim Gəncə şəhəri, Samux və Goranboy rayonlarının kəndləri, xüsusən yol və infrastruktur layihələri ilə bağlı da bir sıra təkliflərim var. Onları yazılı şəkildə təqdim edəcəm.

2025-ci ildə Gəncə şəhərinin böyük bir idman tədbirinə ev sahibliyi edəcəyini nəzərə alaraq, cənab Baş nazirin və hökümət üzvlərinin iştirakından istifadə edərək 2016-cı ildə Gəncənin Avropa Gənclər Paytaxtı və 2019-cu ildə Avropa İdman Şəhəri olduğu zaman göstərdikləri dəstəyi

yenə də əsirgəməyəcəklərinə inanıram və hər birinizi Gəncədə görməyi arzu edirəm.

# MÜNDƏRİCAT

16 dekabr 2024-cü il ........................................................... 3
Edilməmiş çıxışın mətni ..................................................... 68

Yeddinci çağırış

AZƏRBAYCAN RESPUBLİKASI
MİLLİ MƏCLİSİ İCLASLARININ

PROTOKOLLARI
VƏ
STENOQRAMLARI

Birinci sessiya
Payız

16-cı cild

16 dekabr 2024-cü il

Buraxılışına məsul
***Hafiz Babayev***

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  4,5. Sifariş 10. Tiraj 150.